

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 192 (21.602)

13 oktyabr 2016-cı il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qәpik


Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2016-cı il 12 oktyabr tarixli Sərəncamı ilə Azərbaycanda dəmir yolu nəqliyyatının inkişafında səmərəli fəaliyyətinə görə bir qrup şəxs təltif edilmişdir. Təltif olunanlar arasında "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin işçiləri də vardır.

**Əliyev Ədalət Eldar oğlu**

**Kazımov Məhərrəm Həsən oğlu**

"Tərəqqi" medalı ilə təltif edilmişlər.

## Naxçıvanda Aşura mərasimləri keçirilmişdir





Muxtar respublikada dini-mənəvi dəyərlərimiz qorunub saxlanılır, ziyarətgahlar bərpa olunur, məscidlər tikilir, dindarlar üçün lazımi şərait yaradılır. İslamın müqəddəs günləri qeyd olunur, dini dəyərlərə sadiqlik nümayiş etdirilir. Hər il muxtar respublikada mənəvi birlik rəmzi olan Aşura mərasiminin keçirilməsi də bu sahədə görülən işlərin tərkib hissəsi kimi mühüm əhəmiyyətə malikdir.

Məhərrəm ayının 10-cu günü – Aşura İslam tarixinə İmam Hüseyn və tərəfdarlarının haqq uğrunda şəhadətə yetişdiyi gün kimi daxil olmuşdur. Bu günün böyük mahiyyəti vardır. Aşura mərasimləri insanlara iman sevgisi, əqidə saflığı, sədaqət, şücaət, qəhrəmanlıq və torpağa bağlılıq kimi ali dəyərləri aşılayır. Hər il muxtar respublikada keçirilən Aşura mərasimlərində insanlar bu mənəvi dəyərlər ətrafında həmrəy olur, savab işlər görülür, məscidlərdə qanvermə aksiyaları keçirilir, ehtiyacı olanlara həyat verilir.

Oktyabrın 12-də Naxçıvan şəhərindəki Cümə məscidində Aşura mərasimi keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Aşura mərasimində iştirak etmişdir.

Mərasimdə Qurani-Kərimdən ayələr oxunmuş, dualar edilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Dövlət müstəqilliyinin 25-ci ildönümünə həsr olunmuş elmi-praktik konfrans

*Dünən Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində Naxçıvan Musiqi, Dövlət Texniki və Naxçıvan Tibb kolleclərinin tələbələrinin iştirakı ilə Azərbaycan Respublikasının dövlət müstəqilliyinin 25-ci ildönümünə həsr olunmuş "Ulu öndər Heydər Əliyev və müstəqil Azərbaycan" mövzusunda elmi-praktik konfrans keçirilib.*



Konfransda "Ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin banisidir" mövzusunda çıxış edən Heydər Əliyev Muzeyinin direktoru Ramil Orucəliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 11 oktyabr 2016-cı il tarixdə "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirmi beşinci ildönümü haqqında" Sərəncam imzaladığını, müstəqilliyimizin 25-ci ildönümünün ölkəmizdə geniş qeyd olunduğunu bildirib.

Dövlət müstəqilliyinin qazanılmasında ulu öndərimizin əvəzsiz xidmətləri barədə danışan Ramil Orucəliyev tələbələrin diqqətinə çatdırıb ki, ümummilli lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı və apardığı müdrik siyasət nəticəsində ölkənin məhvolma təhlükəsinə, separatçılıq meyillərinə və başlanan vətəndaş müharibəsinə son qoyulub, dövlətlə xalqın birliyi təmin edilib.

Azərbaycanda müstəqilliyin qazanılmasında ulu öndərin Naxçıvan dövründən bəhs edən muzeyin direktoru bildirib ki, 1990-1993-cü illərdə Azərbaycanla yanaşı, Naxçıvanın da başı üzərini qara buludlar almışdı. Məhz belə bir ağır məqamda ümummilli lider doğma Naxçıvana qayıtdı.

Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Ali Sovetinin 1990-cı il noyabrın 17-də ulu öndərimizin sədrliyi ilə keçirilən sessiyasında "Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adının dəyişdirilməsi haqqında", "Naxçıvan Muxtar Respublikasının Dövlət rəmzləri haqqında" tarixi qərarlar qəbul edilib. Həmin tarixi sessiyada Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul olunub. Həmçinin Naxçıvan Muxtar Respublikasının ali qanunvericilik orqanı olan Ali Sovetin adının dəyişdirilərək Ali Məclis adlandırılması muxtar respublikanın ictimai-siyasi həyatına yeni ab-hava gətirib.

1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin fövqəladə sessiyası çox böyük uzaqgörənliklə yekdillik nümunəsi göstərərək görkəmli dövlət xadimi Heydər Əliyevi Ali Məclisin Sədri seçdi. Naxçıvanlıların bu müdrik seçimi dahilər yurdunu real işğaldan və digər təhlükələrdən xilas etdi.

Bildirilib ki, 1993-cü ilin yayında milli dövlətçiliyimiz ikinci dəfə məhv olmaq təhlükəsi ilə üzləşmişdi. Belə bir ağır zamanda xalq milli dövlətçiliyi qorumaq və vətəndaş müharibəsinin ağır fəsadlarından qurtulmaq üçün ulu öndər Heydər Əliyevi Naxçıvandan Bakıya dəvət etdi. Vətəninin və xalqının taleyinə biganə qala bilməyən dahi rəhbərin siyasi hakimiyyətə qayıdışı Vətənin xilası, xalqın qurtuluşu oldu.

Ulu öndər öz siyasi dühası ilə Azərbaycanın müasir simasını müəyyənləşdirərək xalqımızın taleyində silinməz izlər qoyub. Ümummilli liderimizin müəyyənləşdirdiyi uzaqgörən siyasət nəticəsində əldə olunan misilsiz nailiyyətlər göz qabağındadır. Bu uğurlar Azərbaycanın, eləcə də onun ayrılmaz parçası olan Naxçıvan Muxtar Respublikasının daim yeniləşən görkəmində, şəhər və rayonlarımızın sürətlə modernləşməsində, iqtisadiyyat və elmdə, təhsil, mədəniyyət və səhiyyədə, ictimai həyatımızın bütün sahələrində öz əksini tapıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun icraçı direktoru Məmməd Babayev "Ulu öndər Heydər Əliyev və Azərbaycan Respublikasında gənclər siyasəti" mövzusunda çıxış edərək ümummilli lider Heydər Əliyevin hələ ölkəmizə birinci rəhbərliyi dövründə Azərbaycan gəncliyinin inkişafı istiqamətində ardıcıl tədbirlər həyata keçirildiyini, milli dəyərlərə və tarixi-mədəni irsə bağlı gənc nəslin formalaşdırılmasına başlandığını bildirib. Qeyd olunub ki, gənclərin hərtərəfli təhsil almaları üçün həyata keçirilən tədbirlər, onların ixtisaslı kadr kimi yetişdirilməsi, xüsusilə milli hərbi kadrların hazırlanması ölkəmizin gələcək müstəqilliyinə hesablanmışdı və bu mənada ötən əsrin 70-ci illərində ulu öndərin diqqət və qayğısı nəticəsində yetişən gənclik respublikamızın inkişafında yaxından iştirak edib.

Vurğulanıb ki, ümummilli lider Heydər Əliyev 1993-2003-cü illərdə ölkəmizə rəhbərliyi zamanı gənclərlə bağlı dövlət siyasətinin əsas prinsiplərini müəyyənləşdirib. Gənclərin ölkənin sosial-iqtisadi, ictimai-siyasi həyatında fəal iştirakının təmin olunması, onların sosial problemlərinin həlli və gələcəyin layiqli vətəndaşları kimi formalaşması üçün 1994-cü ildə Gənclər və İdman Nazirliyi yaradılıb, bu sahədə dövlət siyasətinin həyata keçirilməsi məqsədilə zəruri qanunvericilik bazası formalaşdırılıb. Bu istiqamətdə muxtar respublikada da xeyli iş görülüb. Ali və orta məktəb binalarının inşası, olimpiya-idman komplekslərinin tikintisi, müxtəlif idman yarışlarının təşkili, yaradıcı gənclərin əməyinin qiymətləndirilməsi və digər tədbirlər muxtar respublikada gənclərin hərtərəfli formalaşmasına geniş imkanlar açıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin elmi katibi Emin Məmmədov "Müstəqillik illərində elmi-mədəni inkişaf" mövzusunda çıxış edərək hələ Azərbaycana ilk rəhbərliyi dövründə xalqın nicat və tərəqqi yolunu elmi biliklərə yiyələnməkdə, müasir texnoloji yenilikləri dərindən mənimsəməkdə görən ulu öndər Heydər Əliyevin ikinci dəfə Azərbaycana rəhbərliyi dövründə də bu istiqamətdə görülən işlərin davam etdirildiyini bildirib. Qeyd olunub ki, bu gün müxtəlif elm sahələrinə dair sanballı tədqiqatlar aparılması, çoxlu sayda gənc alimin yetişdirilməsi, aktual elmi kitabların, monoqrafiyaların nəşri, eləcə də beynəlxalq əməkdaşlıq sahəsində mühüm nailiyyətlərin əldə olunması sahəsində muxtar respublikada da böyük işlər görülür.

Konfransda ümummilli lider Heydər Əliyevin həyatının və siyasi fəaliyyətinin müxtəlif dövrlərindən bəhs edən "Xalqın içində" filmi nümayiş etdirilib.

Sonra tələbələr ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən eksponatlarla tanış olublar.

## Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatının hesabat-seçki yığıncağı olub

***Yığıncaqda ərazi ilk partiya təşkilatının sədri Xəyal Bağırov hesabat dövrü ərzində görülmüş işlər barədə danışıb.***

Qeyd olunub ki, Yeni Azərbaycan Partiyasının ölkəmizin ictimai-siyasi həyatında avanqard rolu günü-gündən artmaqda, nüfuzu yüksəlməkdə, sıraları genişlənməkdədir. Bu da onunla bağlıdır ki, partiya dövlət müstəqilliyimizin, dövlətçiliyimizin möhkəmləndirilməsində, iqtisadiyyatımızın davamlı inkişafında fəal iştirak edən bir siyasi təşkilatdır.

Vurğulanıb ki, Yeni Azərbaycan Partiyası Şahbuz Rayon Təşkilatı Ayrınc kənd ərazi ilk partiya təşkilatının qeydiyyatında duran partiya üzvləri hərtərəfli dövlət qayğısı hesabına gündən-günə inkişaf edən rayonun ictimai həyatında üzərlərinə düşən vəzifələrin yerinə yetirilməsinə çalışırlar. 108 nəfər partiya üzvünün qeydiyyatda durduğu təşkilat öz sıralarının vətənpərvər, dövlətçiliyimizə sadiq gənclər hesabına genişləndirilməsini diqqət mərkəzində saxlayır, onların qüvvəsindən səmərəli istifadə edir.

Diqqətə çatdırılıb ki, qarşıdan Yeni Azərbaycan Partiyası Şahbuz Rayon Təşkilatının XI konfransı gəlir. Partiya üzvləri konfransa ciddi surətdə hazırlaşırlar.

Məruzə ətrafında müzakirələrdə partiya fəalları Elman İsmayılovun, Xaliq Abdullazadənin, Nizami Rzayevin çıxışları olub. Çıxışlarda vurğulanıb ki, bu gün Şahbuz rayonu muxtar respublikanın müasirliyə qovuşmuş bölgələrindən biridir. Bu prosesdə Yeni Azərbaycan Partiyası üzvlərinin rolu xüsusi qeyd olunmalıdır.

Yığıncaq iştirakçıları yekdilliklə Yeni Azərbaycan Partiyası Şahbuz Rayon Təşkilatı Ayrınc kənd ərazi ilk partiya təşkilatının hesabat dövrü ərzindəki fəaliyyətini qənaətbəxş qiymətləndiriblər.

Hesabat-seçki yığıncağında 5 nəfərdən ibarət idarə heyəti, təşkilatın sədri və müavini, Yeni Azərbaycan Partiyası Şahbuz Rayon Təşkilatının XI konfransına 5 nəfər nümayəndə seçilib.

**Xəbərlər şöbəsi**

## Yüksək dağlıq şəraitdə yerləşən hərbi hissələrə yun corab və şərflər təqdim edilmişdir

Oktyabrın 12-də muxtar respublikanın yüksək dağlıq ərazilərindəki hərbi hissələrdə xidmət edən şəxsi heyətə yun corab və şərflər təqdim olunmuşdur.

Bu münasibətlə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birinci müavini Azər Zeynalov çıxış edərək demişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisində payız-qış mövsümünə hazırlıqla əlaqədar avqust ayında keçirilən müşavirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən verilmiş tapşırıqların icrası istiqamətində işlər davam etdirilir. Digər sahələrlə bərabər, ordu hissələrində də payız-qış mövsümünə hazırlıq daim diqqətdə saxlanılır. Əvvəlki illərdə olduğu kimi, bu il də hərbi hissələrdə xidmət edən heyətin qış mövsümündə isti geyimlə əlavə təminatı üçün 3000 cüt yun corab və 700 ədəd yun şərf toxunması nəzərdə tutulub. Artıq 1184 cüt yun corab və 464 ədəd yun şərf toxunmuş və yüksək dağlıq ərazilərdə xidmət edən heyətə vaxtında çatdırılması üçün bu gün təhvil verilir.

Azərbaycan Respublikası müdafiə nazirinin müavini-Əlahiddə Ümumqoşun Ordu komandanı, general-leytenant Kərəm Mustafayev muxtar respublikadakı hərbi hissələrin hərtərəfli qayğı ilə əhatə olunduğunu və torpaqlarımızın etibarlı müdafiə olunduğunu bildirmişdir.

Əsgər Ravid Seyfullayev onlara göstərilən bu qayğıya görə minnətdarlıq etmişdir.

Sonra 1184 cüt yun corab və 464 ədəd yun şərf hərbi hissələrə təhvil verilmişdir.

## Gənclər hərbi xidmətə yola salınırlar

***Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsində gənclərin hərbi xidmətə yola salınması mərasimi keçirilib.***

Mərasimi idarənin Çağırış bölməsinin rəisi, mayor Mirzə Rəhimov açıq elan edib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, ərazi bütövlüyümüz uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının Naxçıvan şəhər təşkilatının sədri Firudin Süleymanovun, Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatının Naxçıvan şəhər şöbəsinin sədri Zahid Cəfərovun, Naxçıvan Şəhər İcra Hakimiyyətinin əməkdaşı İsmayıl Gülməmmədovun çıxışları olub. Bildirilib ki, milli ordumuz Azərbaycanın müstəqilliyinin, onun təhlükəsizliyinin qarantıdır. Buna görə də bugünkü gənclərimiz daha yaxşı xidmət etməli, xidmət dövründə hərbi texnikanın sirlərinə daha yaxşı yiyələnməli və Ali Baş Komandanın əmri olarsa, istənilən anda düşmənə layiqli cavab verməlidirlər.

Valideyn Rəşad İbrahimov övladını hərbi xidmətə yola saldığı üçün fəxr etdiyini bildirib, çağırışçı gənclərə uğurlar arzulayıb.

Çağırışçılar adından çıxış edən Nicat Əliyev Vətənin keşiyində ayıq-sayıq dayanacaqlarına, komandir və rəislər tərəfindən verilən əmr və tapşırıqları vaxtında və layiqincə yerinə yetirəcəklərinə söz verib.

Mərasimdə Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsinin rəisi, polkovnik Elxan Əliyev çıxış edərək bildirib ki, Azərbaycan dövləti inkişaf etdikcə, qüdrətləndikcə ordumuz da güclənir. İnanırıq ki, bu gün hərbi xidmətə yola saldığımız gənclər ordumuzun qorxmaz, cəsur və layiqli əsgərləri olacaqlar.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başa çatıb.

Xatırladaq ki, gənclərin müddətli həqiqi hərbi xidmətə yola salınması mərasimi "Azərbaycan Respublikası vətəndaşlarının 2016-cı il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 9 sentyabr 2016-cı il tarixli Sərəncamına əsasən keçirilib.

Həmin gün Babək rayonunda da gənclərin hərbi xidmətə yolasalma mərasimi keçirilib.

**Xəbərlər şöbəsi**

***Naxçıvanın qorunub saxlanılması, ərazi taleyinin və muxtariyyət statusunun müəyyənləşdirilməsində Qars müqaviləsinin əvəzsiz rolu vardır. Lakin bunu da xüsusilə qeyd etmək lazımdır ki, Qars müqaviləsinə gedən yol 1921-ci ilin əvvəlində Naxçıvanda keçirilən referendumdan başlanır. Həmin referendum Azərbaycan İnqilab Komitəsinin 1 dekabr və Ermənistan İnqilab Komitəsinin 26-28 dekabr 1920-ci il tarixli bəyannamələri və Azərbaycanın görkəmli dövlət xadimi, mahir diplomat Behbud ağa Şahtaxtinskinin apardığı qətiyyətli fəaliyyət nəticəsində baş tutmuş və məhz həmin referendumda Naxçıvan əhalisinin yekdil rəyi əsasında bu qədim diyar həmişəlik olaraq Azərbaycanın tərkibində qalmaq hüququ qazanmışdır. Bu referendum özünün hərbi-siyasi əhəmiyyətinə görə Qars müqaviləsinin müddəalarına bərabər əhəmiyyətə malik siyasi hadisədir. Əgər Naxçıvanın ərazi taleyinə dair 1921-ci ilin yanvar referendumu keçirilməsəydi, bəlkə də, Moskva və Qars müqavilələrinə heç ehtiyac da qalmayacaqdı. Bu, Azərbaycan tarixində Behbud ağa Şahtaxtinskinin adı ilə bağlı olan, mərkəzi hökumətlə razılaşdırılmamış nadir və uğurlu diplomatik gedişdir.***

## Qars müqaviləsi Naxçıvanın muxtariyyət statusuna verilən beynəlxalq təminatdır

Bu, Behbud ağa Şahtaxtinskinin eyni zamanda əsl milli siyasətçi və diplomat olmasının da bariz nümunəsidir. Behbud ağa Şahtaxtinski Rusiya XKS-nin sədri V.İ.Leninə göndərdiyi məktubda Naxçıvan, Zəngəzur və Dağlıq Qarabağ ərazilərinin gələcəyindən duyulan narahatlığı çatdırmış, həmin mahalların milli tərkibi və coğrafiyasına dair geniş arayışlar və Naxçıvan bölgəsi ilə bağlı faydalı təkliflər vermiş, nəticədə, bu təkliflər bəyənilərək RK(b)P MK Siyasi Bürosunda müzakirə olunmuş və Azərbaycan SSR tərkibində Naxçıvan SSR-in təşkil edilməsi haqqında qərar qəbul edilmişdir.

Naxçıvan məsələsi Türkiyə və Rusiya arasında keçirilən görüşlərdə də qızğın müzakirə predmeti olmuşdur. Türk heyəti 2 dekabr 1920-ci il tarixli Gümrü anlaşmasının qüvvədə olduğunu müdafiə edərkən rus nümayəndələri bu anlaşmanı, dolayısı ilə, Türkiyənin Naxçıvan üzərində himayə haqqı olduğunu qəbul etmirdilər. 9 mart tarixli görüşlərdə Naxçıvanın muxtar statusa sahib olması və başqa bir dövlətə verilməməsi şərti ilə himayəsinin Azərbaycana verilməsi qərarlaşdırılmış, digər məsələləri də özündə ehtiva edən Moskva müqaviləsi 1921-ci il martın 16-da imzalanmışdı. Türkiyə nümayəndə heyəti Naxçıvanı Türkiyənin himayəsinə ala bilməmişdisə də, regionun Azərbaycan türklərinin əlində qalması təmin edilmişdi.

Beləliklə, Naxçıvanın Azərbaycanın himayəsi altında olan muxtar ərazi statusu RSFSR ilə Türkiyə arasında imzalanmış 16 maddə və 2 əlavədən ibarət Moskva müqaviləsində təsbit edildi. Bu müqavilə eyni zamanda Rusiya ilə Türkiyə arasında mövcud olan problemləri də həll etdi. Rusiya və Türkiyə sıx ittifaqda birləşdi, təbii müttəfiqə çevrildilər.

Naxçıvanın statusunun bu müqavilədə əks olunması o dövrdə böyük siyasi əhəmiyyət kəsb edən bir fakt kimi dəyərləndirilməlidir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin də qeyd etdiyi kimi, əgər Naxçıvanı Azərbaycandan ayıran Azərbaycan torpaqlarının, yəni Zəngəzur mahalının vaxtilə Ermənistana verilməsi olmasaydı, bəlkə də, heç Naxçıvanın muxtariyyəti də lazım deyildi. Azərbaycan vahid əraziyə malik olan bir ölkə idi.

Moskva müqaviləsinin maddə və şərtlərini daha da konkretləşdirmək və müəyyən mənada tamamlamaq, bununla həm də onu reallaşdırmaq, yəni Türkiyə ilə Cənubi Qafqaz respublikaları arasındakı həll olunmamış məsələləri, xüsusilə də ərazi problemlərini nizama salmaq məqsədilə yeni konfrans çağırmaq lazım gəldi. Moskva müqaviləsi ilə şərq sərhədlərini müəyyənləşdirən Türkiyə Qarsda da Cənubi Qafqaz respublikalarının hər biri ilə ayrı-ayrılıqda müqavilələr imzalamaq istəsə də, Behbud ağa Şahtaxtinskinin "vahid müqavilə bağlanmasının Cənubi Qafqaz respublikaları və Türkiyə üçün qarşılıqlı surətdə faydalı olduğu, inqilabi zərurətin bunu tələb etdiyi" təklifindən sonra Sovet Rusiyası nümayəndəsinin iştirakı ilə Türkiyə üç Cənubi Qafqaz respublikası arasında 1921-ci il oktyabrın 13-də Qarsda müqavilə imzaladı.

Müqavilə 20 maddə və 3 əlavədən ibarət idi. Bu müqavilənin bir sıra müddəaları Moskva müqaviləsinin müvafiq maddələri ilə uyğun idi. Ümumilikdə isə bu sənəddə qeyri-bərabər hüquqlu müqavilələr, zorla qəbul etdirilən müqavilələr və Sevr müqaviləsi rədd edilirdi. Müqavilə Qars və Batumun ərazi məsələləri üzrə bütün müddəalar kompleksini, nəqliyyat kommunikasiyalarının fəaliyyətini və vətəndaşların azad hərəkətinin təmin edilməsi, milli və dini mənsubiyyətindən asılı olmayaraq vətəndaş hüquqları məsələlərinin sarsılmazlığı kimi məsələləri əhatə edirdi. Onun xeyli hissəsi qaçqınlar probleminin nizamlanması və hərbi ərazilərin dəyişdirilməsinə, razılığa gələn tərəflər arasında iqtisadi, mədəni və konsulluq əlaqələrinin əsas inkişaf istiqamətlərinin müəyyənləşdirilməsinə həsr edilmişdir.

Müqavilənin 5-ci maddəsi bilavasitə Naxçıvanın taleyi ilə bağlı idi. Burada yenə də Naxçıvanın Azərbaycanın tərkibində saxlanması və muxtariyyət verilməsi məsələsi təsbit olunmuşdu. Moskva müqaviləsindən fərqli olaraq, Qars müqaviləsinin 5-ci maddəsində Naxçıvanın statusu məsələsində razılığa gələn tərəflər müəyyən edilmişdi. Bunlar Türkiyə, Azərbaycan və Ermənistan hökumətləri olmuşdular. Müqavilənin bu maddəsində göstərilirdi ki, "Türkiyə hökuməti, Azərbaycan və Ermənistan Sovet respublikaları müqavilənin III Əlavəsində göstərilən sərhədlər daxilində Naxçıvan vilayətinin Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil etməsi haqqında razılığa gəlirlər".

Naxçıvan bölgəsinin ərazisi isə müqavilənin III Əlavəsində göstərilən sərhədlər daxilində müəyyən edilirdi: "[Naxçıvan ərazisi] Urmiya kəndindən [başlayır], oradan düz xətt ilə Arazdəyən stansiyasına (bu stansiya Ermənistan SSR-ə qalacaq), sonra düz xətt ilə Daşburun dağının (3142) qərbinə, oradan Daşburun dağının suayırıcısını (4108), Cəhənnəmdərəsi çayını, Bağırsaq dağının suayırıcısını (6607 və ya 6587) keçərək, "Rod." (Bulaq) yazısının cənubundan keçmiş İrəvan və Şərur-Dərələyəz qəzalarının inzibati sərhədləri ilə gedərək, 6629 yüksəkliyindən Kömürlüdağa (6839 və ya 6930), oradan 3080 yüksəkliyinə, Sayatdağa (7868), Qurdqulaq kəndinə, Həməsür dağına (8160), 8022 yüksəkliyinə, Küküdağa (10282) və [nəhayət] keçmiş Naxçıvan qəzasının şərqi inzibati sərhədində [qurtarır]".

Beləliklə, Moskva və Qars müqavilələri Naxçıvanın statusu və tabeçiliyi məsələsini beynəlxalq müqavilələrlə tam şəkildə həll etdi. Qars müqaviləsi müddətsiz imzalanmış və bu müqaviləni imzalayan dövlətlərdən hər hansı birtərəfli qaydada ləğv edə bilməz. Qars müqaviləsi 1922-ci ilin mart-iyun aylarında müqaviləni imzalayan ölkələrin qanunverici orqanlarında təsdiq edilmiş və həmin ilin sentyabrın 11-dən qüvvəyə minmişdir.

Azərbaycanın tərkibində Naxçıvana muxtariyyət statusunun verilməsini yüksək qiymətləndirən ümummilli liderimiz Heydər Əliyev demişdir: ***"Naxçıvanın muxtariyyəti mühüm hadisədir. Bu, çətin bir dövrdə böyük mübarizənin nəticəsi olubdur. Naxçıvanın statusunu qoruyub saxlamaq üçün Moskva müqaviləsinin və xüsusən Qars müqaviləsinin böyük əhəmiyyəti olubdur. Naxçıvan Azərbaycanın əsas torpağından ayrı düşdüyünə görə, Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə də təmin etmək üçün Qars müqaviləsi bizim üçün çox böyük, əvəzi olmayan bir sənəddir".***

Qars müqaviləsi müddətsiz imzalanmışdır və bu müqaviləni imzalayan dövlətlərdən hər hansı biri onu birtərəfli qaydada ləğv edə bilməz. Qars müqaviləsində muxtariyyətin əsası qoyulmuş, Naxçıvan ərazisində Naxçıvan SSR yaradılmış, lakin 16 iyun 1923-cü ildə siyasi və inzibati statusunda dəyişiklik edilən Naxçıvan SSR Naxçıvan diyarına çevrilmişdir. 1924-cü il fevralın 9-da bölgənin inzibati və siyasi statusu bərpa edilərək Naxçıvan MSSR, 1990-cı il noyabrın 17-dən isə Naxçıvan Muxtar Respublikası adlandırılmışdır.

Qars müqaviləsinin ən mühüm tarixi əhəmiyyəti ondan ibarətdir ki, Ermənistan bu müqavilə ilə Naxçıvanı qeyd-şərtsiz Azərbaycan torpağı kimi qəbul etmişdir. Beləliklə, erməni ekspansionizminin qarşısına sədd çəkilmişdir.

Bir vaxtlar əhalinin müqaviməti, Behbud ağa Şahtaxtinski kimi böyük siyasi xadimlərin sayəsində mövcudiyyətini qoruyan "türk qapısı" Naxçıvan Sovetlər İttifaqının dağılmasından sonra bu dəfə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin siyasi uzaqgörənliyi nəticəsində varlığını mühafizə etdi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işlədiyi dövrlərdə ümummilli liderin 1992-ci ilin mart ayında Türkiyəyə səfəri zamanı Qars müqaviləsi yenidən gündəmə gətirilmişdir.

Naxçıvan muxtariyyət statusu daim ümummilli lider Heydər Əliyevin diqqət mərkəzində olmuşdur. Hazırda bu siyasət möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Bu gün bir çox Avropa siyasətçiləri Naxçıvanın muxtariyyətini nadir beynəlxalq model, hüquqi, siyasi və tarixi baxımdan bir fenomen kimi qiymətləndirirlər. Bu, təbiidir. Çünki Naxçıvanın muxtariyyəti daxili qanunvericiliklə yanaşı, həm də beynəlxalq müqavilələrlə müəyyən olunub. Bu amil dünyadakı çox az muxtar qurumların statusunda öz əksini tapıb. Digər qurumlardan fərqli olaraq Naxçıvan Muxtar Respublikasının siyasi səlahiyyətlərə malik muxtar dövlət statusunda fəaliyyət göstərməsi, bu statusun dəyişdirilməsi prosedurunun mövcud olmaması və muxtariyyətin həm milli, həm də beynəlxalq müqavilələrlə müəyyənləşdirilməsinin konstitusion səviyyədə əksini tapması Naxçıvan muxtariyyətini fərqləndirən əsas amillərdəndir.

Naxçıvan muxtariyyətinin xüsusiyyətləri Avropanın müxtəlif dövlətlərarası təşkilatları tərəfindən də yüksək qiymətləndirilərək belə bir modelin çox faydalı olduğu vurğulanmışdır. Naxçıvanın muxtariyyət modeli 2013-cü il oktyabrın 30-da Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresinin sessiyasının sənədlərində xüsusi olaraq qeyd edilmişdir.

*Bu gün Naxçıvan Muxtar Respublikası uğurla inkişaf edir, yeni-yeni nailiyyətlər qazanır. Hazırda muxtar respublikada sosial-iqtisadi problemlərin həlli istiqamətində konkret tədbirlərin görülməsi, zəruri istiqamətlərin müəyyənləşdirilməsi blokada şəraitində yaşayan Naxçıvanın hərtərəfli inkişafına stimul yaradır. Dövlət siyasətinin muxtar respublikamızda məqsədyönlü şəkildə həyata keçirilməsi üçün göstərilən diqqət və qayğı nəticəsində həyatın bütün sahələrində uğurlar və nailiyyətlər əldə olunur.*

**Emin ŞIXƏLİYEV**
***tarix üzrə fəlsəfə doktoru***

## Belarus Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri muxtar respublikanın gəzməli-görməli yerləri, təhsil, mədəniyyət, istehsal, səhiyyə müəssisələri və tarixi abidələri ilə tanış olub

*Xəbər verdiyimiz kimi, oktyabrın 10-da Belarus Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Gennadi Axramoviç Naxçıvan Muxtar Respublikasına səfərə gəlib. Üç gün davam edən səfər çərçivəsində diplomat muxtar respublikanın gəzməli-görməli yerləri, təhsil, mədəniyyət, istehsal, səhiyyə müəssisələri, tarixi abidələri ilə tanış olub.*

Gennadi Axramoviç əvvəlcə ulu öndər Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini və Heydər Əliyev Muzeyini ziyarət edib.

"Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksi ilə tanışlıq zamanı qonağa Əshabi-Kəhfin möcüzəli tarixi barədə ətraflı məlumat verilib.

Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyinin yerləşdiyi qədim "Qeysəriyyə" binası ilə tanışlıq zamanı Belarus Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfirinə XII əsrə aid olan bu tarixi abidə haqqında ətraflı məlumat verilərək bildirilib ki, bina 1990-cı ilin may ayından Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyi kimi fəaliyyət göstərir.



Naxçıvan Dövlət Universitetinin kampusu ilə tanış olan qonağa məlumat verilib ki, bu gün dünyanın 12 ölkəsindən 350-dən çox xarici tələbə universitetdə təhsilini uğurla davam etdirir. Ali məktəb 80-dən çox tanınmış dünya universitetləri ilə tərəfdaşlıq etməklə yanaşı, bir sıra beynəlxalq layihələrdə də uğurla təmsil olunur.

Naxçıvan Avtomobil Zavodunda qeyd olunub ki, bu gün zavodda istehsal olunan avtomobillərə tələbat böyükdür. Zavod yaradıldığı 2008-ci ildən bəri müxtəlif modellərdə 5000-ə yaxın minik avtomobili istehsal edib. Hazırda müəssisənin istehsal etdiyi avtomobillərə Naxçıvandan başqa, Bakıda və ölkəmizin bölgələrində də böyük tələbat vardır.

Heydər Əliyev Sarayı ilə tanışlıqdan sonra regionun nüfuzlu ali təhsil ocaqlarından biri olan "Naxçıvan" Universitetinə gələn Belarus Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfirinə məlumat verilib ki, 1999-cu ildən fəaliyyət göstərən ali məktəbdə hazırda 4 fakültə, 9 kafedra və 5 şöbə var. "Naxçıvan" Universitetinin beynəlxalq əlaqələri genişləndirilib. Bu gün ali təhsil ocağı dünyanın 50-dən çox tanınmış universiteti ilə əməkdaşlıq edir.

Səfir Batabat iqlim-kurort zonası, Şahbuz rayonunda fəaliyyət göstərən "İşgəsu" balıqçılıq təsərrüfatı, Ağbulaq İstirahət Mərkəzi Naxçıvan Günəş Elektrik Stansiyası, Naxçıvan Biznes Mərkəzi, "Gəmiqaya Mineral Suları" və "Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi" Məhdud Məsuliyyətli cəmiyyətləri, "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi ilə də tanış olub.

## Gennadi Axramoviç: "Naxçıvanda istehsal olunan məhsulların Belarusa ixrac olunmasında maraqlıyıq"



Belarus Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Gennadi Axramoviç "Şərq qapısı" qəzetinə müsahibəsində muxtar respublikaya səfərindən məmnun qaldığını bildirib. Naxçıvanın bir sıra sahələr üzrə qazandığı nailiyyətlərin nümunə gücündə olduğunu xüsusi vurğulayan diplomat muxtar respublikanın əldə etdiyi qabaqcıl təcrübənin Belarus Respublikasında da tətbiq edilməsinin əhəmiyyətini qeyd edib. Gennadi Axramoviç deyib:

– Bu, mənim Naxçıvan Muxtar Respublikasına ilk səfərimdir. Bir ildən çoxdur, Azərbaycan Respublikasında fəaliyyət göstərirəm. Belarus Respublikasının yaxın dostu olan Azərbaycanın qədim diyarına səfər etməyi çox arzulayırdım. Mən bilirəm ki, Naxçıvan Muxtar Respublikası həm Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin doğulub boya-başa çatdığı qədim diyardır, eyni zamanda Azərbaycana çox böyük tarixi şəxsiyyətlər, sərkərdələr, ziyalılar, elm xadimləri bəxş edən bölgədir. Ona görə bu unikal diyara səfər etmək mənim üçün çox xoşdur.

Xüsusi vurğulamaq istəyirəm ki, mənim bu gözəl diyar haqqında bütün müsbət düşüncələrim nəinki özünü doğrultdu, hətta muxtar respublikanın unikallığı məni gözlədiyimdən də çox heyrətə düşürdü, çox zəngin təəssüratlar yaratdı.

Naxçıvan şəhərinin küçələrindəki təmizlik və səliqə-sahman, insanların çox qonaqpərvər və gülərüz olması mənə öz doğma vətənim Belarusu xatırlatdı. Naxçıvanlılar şəhərdə tarixliklə müasirliyin möhtəşəm kompozisiyasını yaratmaları, tarixi abidələri, milli dəyərləri ən yüksək səviyyədə qorumaları və bütün bu sahələrdə böyük uğurlar əldə etmələri ilə fəxr edə bilərlər.

Mənim muxtar respublikaya səfər proqramımın sıx olmasına baxmayaraq, bir sıra tarixi-mədəni abidələrlə də tanış oldum. Heyrətamiz idi. Naxçıvanın iqtisadi potensialı ilə tanışlığım zamanı məlumat verildi ki, insanların gərgin əməyi, məqsədyönlü fəaliyyəti və aparılan düzgün iqtisadi siyasət nəticəsində muxtar respublika özünü ərzaq məhsulları ilə tam təmin edir. Naxçıvanın bu nailiyyəti də insanı heyrətləndirir. Muxtar respublikanın əldə etdiyi bu böyük təcrübə bir sıra ölkələrə nümunə təşkil edir. Bu təcrübənin Belarusun bölgələrində də tətbiq olunması əhəmiyyət kəsb edir.

Mən burda ali təhsil ocaqlarında da oldum. Universitetlərdə tələbələrin hazırlıqlı kadr kimi yetişmələri üçün hər cür şərait yaradılıb. Hər şey mükəmməldir. Buna görə də yaxın zamanlarda Naxçıvan Muxtar Respublikasının ali təhsil müəssisələri ilə Belarus Respublikasının ali təhsil ocaqları arasında sıx əlaqələrin qurulmasının vacib olduğunu düşünürəm.

Biz istəyirik ki, bütün sahələrdə əməkdaşlıq edək. Görüşlər zamanı Belarus Respublikasının qəhrəman Brest şəhəri ilə Naxçıvan şəhəri arasında əlaqələrin genişləndirilməsi barədə müzakirələr apardıq. 2012-ci ildə Naxçıvan və Brest şəhərləri arasında iqtisadi-ticarət və humanitar-mədəni sahələrdə əməkdaşlıq haqqında saziş imzalanıb, bu iki şəhər qardaş şəhərlər elan olunub. Biz istəyirik ki, bu əməkdaşlıq yeni məcrada dinamik şəkildə inkişaf etsin. Gələcəkdə Belarus Respublikasının regionları ilə Naxçıvan Muxtar Respublikası arasında sıx əlaqələrin qurulmasında səylərimizi əsirgəməyəcəyik.

Naxçıvanın tikinti materialları istehsal edən müəssisələrində də olduq. Xüsusilə daş məhsullarının yüksək səviyyədə emal edilməsi, məhsulların çeşidliliyi və onların keyfiyyəti diqqətəlayiqdir. Qeyd edim ki, bizim bu məhsullara çox ehtiyacımız var. Çünki bu gün Belarusda tikinti işləri geniş vüsət alıb, bir sıra obyektlər inşa olunur. Biz istərdik ki, Naxçıvanın daş məhsullarından həmin obyektlərin tikintisində istifadə edək. Bir sözlə, Naxçıvanda istehsal olunan məhsulların Belarusa ixracında maraqlıyıq.

Biz Duzdağ Fizioterapiya Mərkəzində də olduq. Oradakı duz tuneli və duz qayalarına təəccüblə baxdıq. Burada müxtəlif ağciyər xəstəliklərinin müalicə olunduğunu öyrəndik. Bu istiqamətdə Naxçıvan Muxtar Respublikası ilə Belarus Respublikası arasında səhiyyə turizmi sahəsində əlaqələrin genişləndirilməsini vacib hesab edirəm. Bu əlaqələrin çox böyük perspektivi olacağını düşünürəm.

Bizim əməkdaşlıq sahəsində başqa planlarımız da var. Lakin onların həyata keçməsi üçün bundan sonra görüşlərin davam etdirilməsi, qarşılıqlı maraq doğuran məsələlər barədə müzakirələrin aparılması vacibdir. Önümüzdəki aylarda bu istiqamətdə konkret addımlar atacağıq.

Əsas odur ki, əlaqələrin inkişaf etdirilməsi məsələsində hər iki tərəf həmfikirdir Bu mənada, mən muxtar respublikaya səfərimdən çox razıyam. Səfərim gözlədiyimdən də yaxşı nəticə verdi.

✍ **Rauf ƏLİYEV**

*13 oktyabr Azərbaycan dəmiryolçularının peşə bayramı günüdür*

## Naxçıvanda dəmir yolu nəqliyyatı hərtərəfli qayğı ilə əhatə olunub

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2005-ci il 5 oktyabr tarixli Sərəncamı ilə hər il oktyabrın 13-ü ölkəmizdə dəmiryolçuların peşə bayramı günü kimi qeyd edilir.***

Dəmir yolu nəqliyyatının inkişaf dövrü ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdən başlamışdır. 1969-cu ildə respublika rəhbərliyinə gələn ulu öndərimizin həyata keçirdiyi kompleks tədbirlər digər sahələr kimi, dəmir yolu nəqliyyatının da əsaslı inkişafına təkan vermişdir. O dövrə qədər keçmiş SSRİ dəmir yolları sistemində elektrikləşmə, müasir rabitə və işarəvermə, dartı qüvvələrinin tətbiqi, lokomotiv və vaqon parklarının yeniləşməsi, yeni xətlərin çəkilişi, stansiyaların texniki inkişafı sürətlə həyata keçirilirdi. Azərbaycanın dəmir yolu təsərrüfatı isə ümumi inkişafdan geridə qalmışdı. Dahi rəhbər Heydər Əliyevin bu sahəyə göstərdiyi diqqət və qayğı qısa zaman kəsiyində öz bəhrəsini verdi. Yol təsərrüfatının və stansiyaların inkişafı ön plana çəkildi, yeni vağzal binaları inşa olundu. Əgər 1969-cu ilə qədər Azərbaycanda 159 dəmir yolu stansiyası var idisə, qısa müddətdə onların sayı 176-ya çatdırıldı. Bu dövrdə 482,8 kilometr məsafədə yeni dəmir yolu xətləri çəkildi, Ələt-Astara, Naxçıvan-İmişli, Şərur-Culfa və digər sahələrdəki stansiyalarda yoldəyişdirici və işarəvermə qurğuları dispetçer mərkəzinə qoşuldu. Həmçinin dəmir yollarının 1284 kilometri tam elektrikləşdirildi.

Naxçıvan dəmir yolu stansiyası bütün dövrlərdə xalq təsərrüfatı yüklərinin və əhalinin daşımaya olan tələbatının vaxtında və təhlükəsiz yerinə yetirilməsində müstəsna əhəmiyyət kəsb etmişdir. Muxtar respublikada yük və sərnişin daşımalarına olan tələbatı təmin etmək, xidmətin səviyyəsini yüksəltmək məqsədilə ulu öndərimizin şəxsi təşəbbüsü ilə 1976-cı ildə dəmir yollarının Naxçıvan Hissəsinin mərkəzi aparatı İmişli stansiyasından Naxçıvan şəhərinə köçürülmüş və hərtərəfli fəaliyyəti təmin olunmuşdur. 1988-ci ildə Culfa-Şərur sahəsinin elektrikləşdirilməsi nəticəsində dəmir yolu nəqliyyatında elektrovoz dartısından istifadə olunmuşdur.

Ötən əsrin 90-cı illərində baş verən hadisələr, erməni hərbi birləşmələri tərəfindən Azərbaycan ərazilərinin işğal edilməsi dəmir yolu şəbəkəsinə də ciddi ziyan vurmuş, 240 kilometrdən artıq dəmir yolu xətti dağıntılara məruz qalmışdır. Nəticədə, Mehri-Kərçivan sahəsində qatarların hərəkəti dayandırılmış, Naxçıvan Muxtar Respublikasının dəmir yolu ölkədən təcrid edilmiş, muxtar respublika blokada vəziyyətinə düşmüşdür. Blokada şəraitində olmasına baxmayaraq, ümummilli liderimizin gərgin əməyi sayəsində dəmir yolu nəqliyyatı öz fəaliyyətini dayandırmamış, muxtar respublikada daşımaya olan tələbatın ödənilməsinə nail olunmuşdur.

Ümummilli lider Heydər Əliyevin ikinci dəfə Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra dəmir yolu nəqliyyatı da özünün yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Son illər ölkəmizdə, eləcə də muxtar respublikada bu sahədə həyata keçirilən tədbirlərin həcmi daha da artmış, dəmir yolu nəqliyyatı infrastrukturunun müasirləşdirilməsi istiqamətində ardıcıl və kompleks tədbirlər görülmüşdür.

Bu gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı ilə "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin fəaliyyəti üçün müasir iş şəraiti yaradılmış, vağzal binaları, stansiyaların idarəetmə mərkəzləri, digər inzibati və yardımçı binalar əsaslı təmir olunmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 16 mart tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında dəmir yolu nəqliyyat sisteminin 2011-2015-ci illər üzrə İnkişaf Proqramı"nın uğurla icra olunması muxtar respublikada dəmir yolu nəqliyyatının inkişafında yeni mərhələnin əsasını qoymuşdur. Son illər Culfa stansiyasında Yük və Sərnişin Daşımaları İdarəsinin inzibati binası, Culfa Lokomotiv Deposu, Lokomotiv Briqadalarının İdarəedilməsi Mərkəzi və radiorabitə sexi binası əsaslı təmir edilərək istifadəyə verilmişdir. Muxtar respublikada yol-nəqliyyat kompleksinin yeniləşməsi istiqamətində görülən işlərin davamı olaraq Qarabörk və Vəlidağ stansiyalarında yükləmə və boşaltma meydanı yaradılmış, 2011-ci ildən Vəlidağ stansiyasından Qarabörk stansiyasına qum-çınqıl, Şahtaxtı stansiyasından isə Naxçıvan və Qarabörk stansiyalarına travertin-mərmər bloklarının daşınmasına başlanılmışdır. 2014-cü ildə cəmiyyətin İnfrastruktur İdarəsinin inzibati binası əsaslı təmir və yenidənqurma işlərindən sonra istifadəyə verilmişdir. Hazırda Ordubadda sərnişin vağzalı və Yol Sahəsinin inzibati binalarının tikintisi, İdarəetmə Mərkəzi və Yol Sahəsinin yardımçı binalarının əsaslı təmirinin davam etdirilməsi bu sahədə həyata keçirilən tədbirlərin davamlı xarakter almasının əyani ifadəsidir.

Yeni avadanlıqların, maşın və mexanizmlərin alınıb gətirilməsi, yolların əsaslı təmiri və yenidən qurulması, vaqonların istismara yararlı vəziyyətdə olması da diqqət mərkəzində saxlanılmış, yük və sərnişin daşımalarının etibarlılığı təmin edilmişdir. İnfrastrukturun daim yenilənməsi, xidmətin səviyyəsinin yüksəldilməsi muxtar respublikada nəqliyyatın bu növündən istifadə edənlərin də sayının artmasına səbəb olmuşdur. Bu ilin 9 ayında muxtar respublikada dəmir yolu vasitəsilə 116 min 331 sərnişin və 41 min 529 ton yük daşınmışdır.

Bu il Naxçıvan şəhərində Naxçıvan-Təbriz-Tehran-Məşhəd beynəlxalq sərnişin qatarının fəaliyyətə başlaması ilə bağlı müzakirələr aparılaraq müvafiq razılaşma əldə olunmuşdur. Növbəti mərhələdə isə fəaliyyətə başlayacaq bu dəmir yolu xətti ilə yükdaşımaların da həyata keçirilməsi nəzərdə tutulur ki, bu da dəmir yolunun iqtisadi potensialını xeyli artıracaqdır. İran İslam Respublikası ərazisindən keçməklə Naxçıvan Muxtar Respublikasına gətirilən və aparılan yüklərin daha ucuz qiymətə daşınması da təmin edilmişdir. Belə ki, Saraks üzərindən Orta Asiyaya və Bəndər-Abbas limanına marşrutlar işlənmiş, yükdaşıma tariflərinə güzəştlər olmuşdur. Bunun nəticəsidir ki, cari ilin ötən aylarında Türkmənistan Respublikasından İran İslam Respublikası ərazisindən keçməklə muxtar respublikamıza 53 vaqon – 3383 tondan artıq gübrə gətirilmişdir. Bundan başqa, Bakı-Tbilisi-Qars dəmir yolunun Naxçıvan-Culfa-Təbriz dəmir yolu xəttinə birləşdirilməsi istiqamətində də zəruri tədbirlər həyata keçirilir.

Muxtar respublikada dəmir yolu nəqliyyatı sahəsində ixtisaslı kadrlara olan tələbatın ödənilməsi istiqamətində də ardıcıl tədbirlər görülür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" 2015-ci il 27 iyul tarixli Sərəncamına əsasən ali və orta ixtisas məktəblərində müvafiq ixtisaslar "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinə hamiliyə verilmişdir. Sərəncamın icrasına uyğun olaraq Naxçıvan Dövlət Texniki Kollecində Nəqliyyatda daşımaların təşkili ixtisası üzrə yüksəkixtisaslı kadrların hazırlanması məqsədilə zəruri maddi-texniki baza yaradılmış, Naxçıvan Dövlət Universitetində Dəmir yolu nəqliyyatı və təsərrüfatı mühəndisliyi ixtisası üzrə təhsil alan tələbələr üçün müasir əyani dərs vəsaitləri ilə təmin olunan auditoriya istifadəyə verilmişdir. Cari ildə universitetin 8, Texniki Kollecin isə 14 tələbəsi müqavilə yolu ilə yay tətili müddətinə müxtəlif vəzifələrə işə qəbul edilmişdir.

Dəmiryolçular bundan sonra da öz işlərini günün tələbləri səviyyəsində quracaq, sərnişinlərə nümunəvi xidmət göstərəcək və muxtar respublikanın sosial-iqtisadi inkişafına öz töhfələrini verəcəklər.

***"Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin mətbuat xidməti***

## Naxçıvan şəhərində *“Arıçılıq məhsulları – bal”* festivalı keçiriləcək



***Arıçılıq iqtisadi cəhətdən gəlirli, qida və müalicəvi əhəmiyyət baxımından ən xeyirli təsərrüfat sahəsidir. Belə ki, arıçılıq təsərrüfatının yaradılmasına lazım olan xərc az, qoyulmuş xərcin qaytarılma müddəti qısa, iş şəraiti ekoloji-sağlamlıq cəhətdən əlverişlidir. Elm sübut edib ki, tərkibi sadə şəkərlər, qlükoza və fruktozadan ibarət olan bal insan orqanizmi tərəfindən 100 faiz mənimsənilir.***

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyindən aldığımız məlumata görə, oktyabrın 15-16-da Naxçıvan şəhərindəki “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində “Arıçılıq məhsulları – bal” festivalı keçiriləcək. Bu tədbirə muxtar respublikanın müxtəlif bölgələrindən 212 arıçı bal, arı südü, güləm, bəramum və digər məhsullar çıxaracaq. Festivalda münsiflər heyəti tərəfindən arıçılıq məhsullarının keyfiyyəti yoxlanılacaq və ilk üç yerə layiq görülən arıçılara qiymətli hədiyyələr veriləcək.

Məlumat üçün bildirək ki, muxtar respublikamızda təsərrüfatın çox mühüm və gəlirli sahəsi olan arıçılığın inkişafına böyük diqqət yetirilir. Bunun nəticəsidir ki, arıçılığa maraq daha da artıb. Arıçılığın inkişafı ilə əlaqədar dövlət maliyyə dəstəyinin həcmi xeyli artırılıb, balın emalı və qablaşdırılması ilə məşğul olan yeni istehsal sahələri istifadəyə verilib. Təkcə ötən il muxtar respublikada 70 min 396 baş arı ailəsi mövcud olub, 1396 ton bal istehsal edilib. Bu da 1995-ci ildəki müvafiq göstəricini 14,5 dəfə üstələyir.

“Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksi indi muxtar respublikada keçirilən müxtəlif festivalların, mədəni tədbirlərin dəyişməz ünvanına çevrilib. Təkcə bu ilin may-avqust aylarında Naxçıvanda 4 festival keçirilib. “Yaradıcı əllər”, “Göycə”, “İstedadlı uşaqlar” və “Naxçıvan çörəkləri” adlı festivallar ictimaiyyət tərəfindən maraqla qarşılanıb. Sentyabrın 30-da burada “Plov” və “Yallı” festivalları keçirilib. “Arıçılıq məhsulları – bal” festivalı “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində təşkil edilən növbəti mədəni-kütləvi tədbir olacaq.

✍ **Səbuhi HÜSEYNOV**

## Culfa rayonunun Xanəgah kəndi yaxınlığında qaya təsvirləri aşkar olunub

*Bu günlərdə Culfa rayonunun Xanəgah kəndi yaxınlığında (Orta Anzır kəndinin qalıqlarından şərq tərəfdə) dağdan qopan iri qaya parçasının üzərində qaya işarələri qeydə alınıb. Bu işarələr haqqında Xanəgah kənd məktəbinin müəllimi Nəcəf Nəcəfov məlumat verib.*

İlkin araşdırmalar nəticəsində aydın olub ki, tapılan qaya üzərindəki təsvir ayrılıqda çəkilmiş üç rəsmdən ibarətdir. Rəsmlərin ikisi döymə, biri isə kəsmə texnikası ilə çəkilib.



AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Qədim dövr arxeologiyası şöbəsinin müdiri, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyevin verdiyi məlumata görə, təsvirlər müxtəlif dövrlərdə çəkilib. Döymə üsulu ilə çəkilmiş rəsmlərin bənzərləri Gəmiqaya təsvirlərindən elmə məlumdur. Məlumat üçün onu da qeyd edək ki, çoxmənalı məzmuna sahib olan bu tip təsvirlər başlıca olaraq insanı və həyat ağacını simvolizə edib. Çəkilmə texnikasına görə fərqlənən üçüncü təsvir metal alətdən istifadə olunmaqla hazırlanıb. Bu təsvir də o birilər kimi insanı, daha geniş mənada, həyatı, həyat ağacını simvolizə edib.

Vəli Baxşəliyevin fikrincə, qaya parçasının üzərindəki qaya işarələrinin iki təsvirini e.ə. II-I minilliklərə, üçüncü təsviri isə bizim eranın I minilliyinə, orta əsrlərə aid etmək olar.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

## Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 31 oktyabr 2016-cı il tarixdə açıq hərraca çıxarılacaq əmlaklar haqqında məlumat

| Sıra №-si | Hərraca çıxarılacaq əmlak | Əmlakın hüquqi ünvanı | Əmlakın ilkin satış qiyməti (manat) | İlkin satış qiymətinin 5 faiz həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|
| 1. | 0,2452 hektar torpaq sahəsində yerləşən 1 mərtəbəli, 2 otaqlı, 70,60 kv.m yaşayış, 59,21 kv.m köməkçi sahədən ibarət fərdi yaşayış evi | Babək rayonu, Şıxmahmud kəndi | 40.000 | 2.000 |
| 2. | 0,6078 hektar torpaq sahəsində yerləşən 2 mərtəbəli, 7 otaqlı, 126,91 kv.m yaşayış, 169,83 kv.m köməkçi sahədən ibarət fərdi yaşayış evi | Babək rayonu, Yuxarı Uzunoba kəndi | 60.000 | 3.000 |
| 3. | 58,71 kv.m ümumi, 46,07 kv.m yaşayış, 12,64 kv.m köməkçi sahədən ibarət 3 otaqlı, 6 nömrəli mənzil | Naxçıvan şəhəri, “İstiqlal” küçəsi bina 101, 1-ci giriş, 3-cü mərtəbə | 60.000 | 3.000 |
| 4. | 0,1875 hektar torpaq sahəsində yerləşən 1 mərtəbəli, 3 otaqlı, 42,40 kv.m yaşayış, 72,24 kv.m köməkçi sahədən ibarət fərdi yaşayış evi | Babək rayonu, Şıxmahmud kəndi | 40.000 | 2.000 |
| 5. | 69,65 kv.m ümumi, 54,60 kv.m yaşayış sahəsindən ibarət 4 otaqlı mənzil | Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 10, 5 mərtəbəli bina, 3/2-də | 70.000 | 3.500 |
| 6. | 0,8339 hektar torpaq sahəsində yerləşən 1553,15 kv.m ümumi, 1094,84 kv.m əsas, 458,31 kv.m köməkçi sahədən ibarət 1 mərtəbəli qeyri-yaşayış binası (ferma) | Babək rayonu, Yuxarı Uzunoba kəndi | 280.000 | 14.000 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan əmlakların ilkin satış qiymətinin 5 % məbləğində beh “Kapital Bank” ASC-nin Babək rayon filialının AZ83AIIB38030019443060277130 nömrəli hesabına 25 oktyabr 2016-cı il tarixədək ödənilməlidir.

Hərraclarda iştiraka görə hərrac iştirakçılarından qanunvericilikdə müəyyən edilmiş iştirak haqqı Auksion Mərkəzinin Maliyyə Nazirliyindəki №AZ 21 NABZ12360100000000005944 nömrəli hesabına köçürülür.

Sifarişlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu gündən auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan müəssisənin sənədləri ilə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün komissiyaya aşağıdakı sənədlər təqdim olunur:

*-Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən təsdiq edilmiş formada sifariş;*

*-ödəniləcək behin qəbzi;*

*-hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*

*-fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 31 oktyabr 2016-cı il tarixdə, saat $11^{00}$-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.

***Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz.***

***Əlaqə telefonu: 545-01-38***

***Ümummilli liderimiz sağlam düşüncəli gənc nəslin yetişdirilməsini dövlət və cəmiyyətin mühüm vəzifələrindən biri kimi müəyyənləşdirmişdir. Ulu öndərin müəllifi olduğu dövlət gənclər siyasəti bu gün ölkəmizdə, eləcə də muxtar respublikada uğurla həyata keçirilir. Gənclərin dövlətin və cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakı təmin edilir, gənc istedadlara dövlət qayğısı günbəgün artırılır. Xüsusilə onların yaradıcılıq axtarışlarının stimullaşdırılması, milli ruhda və vətənpərvər böyüdülməsi diqqət mərkəzində saxlanılır.***

## İstedadlı uşaq və gənclər muzeyləri ziyarət ediblər



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 19 dekabr tarixli “Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında” Sərəncamı qədim yurdumuzun tarixi keçmişinin, mədəniyyətinin öyrənilməsində əhəmiyyətli rol oynayır. Sərəncama uyğun olaraq dünən Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə yaradıcılıq sahəsində fərqlənən istedadlı uşaq və gənclər Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyini, “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksini və Naxçıvan Dövlət Xalça Muzeyini ziyarət ediblər. Onlar hər bir muzey haqqında ətraflı məlumat alaraq eksponatlarla yaxından tanış olublar.

## Karate-do üzrə şəhər birinciliyində 160-dan çox idmançı mübarizə aparıb

***Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində 18 Oktyabr – Dövlət Müstəqilliyi Günü münasibətilə oğlan və qız idmançılar arasında karate-do üzrə Naxçıvan şəhər açıq birinciliyi keçirilib.***



Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyası ilə Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin təşkil etdiyi birincilikdə 160-dan çox oğlan və qız karateçi mübarizə aparıb.

Karate-do Federasiyasının sədr müavini Nəriman Quliyev tədbiri açıq elan etdikdən sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov çıxış edərək bildirib ki, açıq birinciliyi keçirməkdə məqsəd karate-do idman növünü yeniyetmə və gənclər arasında təbliğ etməkdən ibarətdir.

Birincilikdə Naxçıvan şəhərinin idmançıları ilə yanaşı, Şərur, Babək, Ordubad, Culfa, Kəngərli, Şahbuz və Sədərək rayonlarının idmançıları da öz qüvvələrini sınayıblar. 8 yaş qrupu üzrə təşkil edilən yarış beynəlxalq qaydalar əsasında keçirilib.

Yekun nəticəyə əsasən, oğlanlar arasında 6-7 yaş qrupunda Uğur Əsgərov (Şərur), 8-9 yaş qrupunda Seyran Quluzadə (Naxçıvan şəhəri), 10-11 yaş qrupunda Ərtoğrul Məmmədbəyli (Şərur), 12-13 yaş qrupunda Vüsal Seyidov (Naxçıvan şəhəri) və 14-15 yaş qrupunda Aslan İsmayılov (Naxçıvan şəhəri), qızların mübarizəsində isə 8-9 yaş qrupunda Özləm Hacıyeva (Naxçıvan şəhəri), 10-11 yaş qrupunda Fidan Əliyeva (Naxçıvan şəhəri), 12-13 yaş qrupunda Fatimə Yusifova (Şərur) bütün görüşləri qalib kimi başa vuraraq birinci yerə layiq görülüblər.

Sonda hər yaş qrupunda yer tutan idmançılara Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin diplomları təqdim edilib.

## Babək rayonunda poliatlon çoxnövçülüyü üzrə birincilik

*Babək Rayon Gənclər və İdman İdarəsi ilə Təhsil Şöbəsinin birgə təşkil etdiyi “Vətənin müdafiəsinə hazıram” poliatlon çoxnövçülüyü üzrə Babək rayon birinciliyinə yekun vurulub.*



Yarışın keçirilməsində məqsəd Babək rayonunun bədən tərbiyəsi və idman kollektivlərində, qəsəbə və kəndlərində “Vətənin müdafiəsinə hazıram” çoxnövçülüyünün yeniyetmə və gənclər arasında təbliğ edilməsindən, Babək rayonunda yaşayan çağırışyaşlı və çağırışaqədər yeniyetmə və gənclərin hərbi-vətənpərvərlik ruhunda tərbiyə olunmasından, Babək rayon gənclərinin milli orduda xidmət etməsi üçün fiziki hazırlıq səviyyəsinin yüksəldilməsindən ibarət olub. Birincilikdən öncə rayon Gənclər və İdman İdarəsinin rəisi Nazim Salmanlı və Təhsil Şöbəsinin əməkdaşı Müslüm Vəliyev iştirakçılara uğurlar arzulayıblar. Yarışda Babək rayonu üzrə 12 məktəbin komandası mübarizə aparıb.

Yarış 100 metr məsafəyə qaçış, 2000 metr məsafəyə kross qaçışı, qumbara atmaq və turnikdə dartınmaq növləri üzrə keçirilib. Yekun nəticəyə əsasən, 929 xal toplayan Payız kənd tam orta məktəbinin komandası qalib adını qazanıb. Nəhəcir kənd tam orta məktəbinin komandası ikinci, Babək qəsəbə 1 nömrəli tam orta məktəbin komandası isə üçüncü olub.

✍ **Ceyhun MƏMMƏDOV**

**ŞƏRQ** *qapısı*
**Baş redaktor:** TURAL SƏFƏROV

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Əli Cabbarov**
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
**Tiraj: 1050. Sifariş № 762**